

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 27 (21.437)

*11 fevral 2016-cı il, cümə axşamı*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvanda sahibkarlarla işgüzar görüş keçirilmişdir





Fevralın 10-da Naxçıvan Biznes Mərkəzində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun muxtar respublikada fəaliyyət göstərən sahibkarlarla görüşü olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə çıxış edərək demişdir: Bu gün ölkəmizdə, o cümlədən Naxçıvan Muxtar Respublikasında sabitlik yaradılıb, iqtisadiyyat şaxələndirilib, biznes mühiti təkmilləşdirilib, sahibkarlığın inkişafı ilə bağlı əsaslı tədbirlər həyata keçirilib və bu gün də bu istiqamətdə tədbirlər davam etdirilir. Cari il yanvarın 26-da Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının ikinci ilinin yekunlarına həsr olunan konfransda ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən qarşıya qoyulan vəzifələr bir daha təsdiq etdi ki, sahibkarlığın inkişafı, özəl bölmədə məhsul istehsalının həcminin artırılması bundan sonra da diqqət mərkəzində saxlanılacaqdır.

Ali Məclisin Sədri demişdir: Muxtar respublikamızda da özəl sektorun inkişafı diqqət mərkəzindədir. Sahibkarlıq fəaliyyəti üçün geniş imkanlar yaradılıb. Təkcə 2015-ci il ərzində muxtar respublikada fəaliyyət göstərən bank və kredit təşkilatları tərəfindən sahibkarlığın inkişafına 38 milyon manatdan çox vəsait yönəldilib. Bunun 11 milyon 289 min manatı Sahibkarlığa Kömək Fondunun xətti ilə güzəştli şərtlərlə dövlət maliyyə dəstəyi kimi verilən kreditlərdir. Bütün bunlar sahibkarlığın inkişafına öz təsirini göstərmiş, ümumi daxili məhsulda özəl bölmənin xüsusi çəkisi artaraq 87 faiz olmuşdur. Qəbul olunmuş dövlət proqramlarının icrası da sahibkarlığın inkişafına öz töhfəsini vermişdir. Sahibkarlar tərəfindən yeni istehsal sahələri, iş yerləri yaradılmış, məşğulluq təmin olunmuşdur. Yeni istehsal və emal sahələrinin sayının artması nəticəsində bu gün muxtar respublikada 361 növdə məhsul istehsal olunur. Əhalinin 107-si ərzaq, 236-sı qeyri-ərzaq olmaqla, 343 növdə məhsula olan tələbatı tamamilə yerli istehsal hesabına ödənilir. Qeyd olunanlar iqtisadi sahədə son illər qazanılmış nailiyyətləri əks etdirən mühüm göstəricilərdir. Lakin ölkə Prezidentinin də qeyd etdiyi kimi, ***"Yeni dövr yeni vəziyyət, yeni yanaşmalar tələb edir. Ona görə də indiki şəraitdə sahibkarlıq daha da genişləndirilməli, sahibkarlara daha yaxşı şərait yaradılmalı, yerli istehsalı sürətləndirmək üçün əlavə tədbirlər görülməlidir".***

Yerli istehsalın inkişafı daxili bazarın qorunmasında, xaricə valyuta axınının qarşısının alınmasında və idxaldan asılılığın aradan qaldırılmasında mühüm rol oynayır. İqtisadiyyat Nazirliyi yerli xammala əsaslanan, əhali tələbatının dolğun şəkildə ödənilməsinə imkan verən istehsal müəssisələrinin yaradılmasını bundan sonra da davam etdirməlidir. İstehsal olunan məhsulların xarici amillərdən asılılıq səviyyəsi müəyyənləşdirilməli, bunun aradan qaldırılması yolları araşdırılmalıdır. Daxili bazarın tələbatının ödənilməsi ilə yanaşı, xarici bazarlara çıxış imkanları da araşdırılmalıdır. İxracyönümlü məhsul istehsal edən sahibkarlıq subyektlərinin fəaliyyətini stimullaşdırmaq, onların xarici bazarlara çıxış imkanlarını asanlaşdırmaq lazımdır. Eyni zamanda, sahibkarlıq subyektləri də gözləmə mövqeyində dayanmamalı, öz məhsullarının muxtar respublikadan kənarda satışının təşkili məqsədilə marketinq araşdırmaları aparmalı, bu məhsulların təbliği üçün internet resursları



və kütləvi informasiya vasitələrinin imkanlarından faydalanmalıdırlar.

Ali Məclisin Sədri demişdir ki, kənd təsərrüfatı və emal məhsullarının ixrac potensialının artırılmasına xüsusi diqqət yetirilməlidir. İqtisadiyyat və Kənd Təsərrüfatı nazirlikləri tələbatdan artıq məhsulun ixracı üçün işi gücləndirməlidirlər. Əhalinin alıcılıq qabiliyyəti qorunmalıdır. Bunun üçün istehlak qiymətlərinə nəzarət mexanizmi gücləndirilməli, müvafiq qurumlar tərəfindən süni qiymət artımına qarşı tədbirlər davam etdirilməlidir. İqtisadiyyat və Kənd Təsərrüfatı nazirlikləri, yerli icra hakimiyyəti orqanları yerli istehsal məhsullarının birbaşa istehsalçılar tərəfindən satışına nail olmalı, yarmarkaların təşkili cari ildə də davam etdirilməlidir. Daxili bazarda yerli istehsalın xüsusi çəkisinin artırılması ilə yanaşı, azad rəqabət mühitinin yaradılması və inhisarçılığın qarşısının alınması məsələlərinə də diqqət artırılmalıdır. Dövlət Gömrük Komitəsi tərəfindən idxal olunan məhsulların keyfiyyətinə nəzarət gücləndirilməli, geni dəyişdirilmiş məhsulların muxtar respublikaya gətirilməsinin qarşısı alınmalıdır.

Qeyd olunmuşdur ki, muxtar respublika iqtisadiyyatında bankların aparıcı rolu təmin edilməlidir. İqtisadi cəhətdən sərfəli layihələrin icrasına dövlət maliyyə dəstəyi, yaxud sahibkarların şəxsi vəsaitlərindən əlavə bank kreditlərindən istifadə imkanları da artırılmalı və bunlar daha çox real sektorun inkişafına yönəldilməlidir. Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi bununla bağlı konkret tədbirlər planına malik olmalıdır. Eyni zamanda, istər bank və kredit təşkilatları, istərsə də Sahibkarlığa Kömək Fondunun xətti ilə kreditlər verilərkən ehtiyac meyarları düzgün qiymətləndirilməli, maliyyə riskləri ciddi şəkildə araşdırılmalı, vəsaitlərin təyinatı üzrə və səmərəli istifadəsinə nəzarət gücləndirilməlidir.

Ali Məclisin Sədri inflyasiya əleyhinə tədbirlərin gücləndirilməsinin diqqət mərkəzində saxlanılmasının vacibliyini bildirərək demişdir: Bunun təsirli vasitələrindən biri də dövriyyədə olan nağd pul kütləsinin həcminin azaldılmasıdır. Alıcı təşkilatlar, eləcə də sahibkarlıq subyektləri nağdsız əməliyyatlara üstünlük verməlidirlər. Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi Vergilər Nazirliyi ilə birlikdə bu istiqamətdə işi gücləndirməli, fəaliyyətə başlayan hər bir sahibkarlıq subyekti üçün bank hesablarının aktiv olmasına diqqəti artırmalıdır. Bundan əlavə, alğı-satqı əməliyyatlarında POS-terminallardan istifadə ilə bağlı tədbirlər gücləndirilməlidir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi məşğulluq məsələlərini ciddi nəzarətdə saxlamalı, dövlət orqanlarında və sahibkarlıq subyektlərindəki boş iş yerləri haqqında məlumatlar vaxtaşırı yenilənməlidir. Xüsusilə sahibkarlar, iş adamları bu məsələyə sosial məsuliyyət nöqteyi-nəzərindən yanaşmalı, işsiz vətəndaşların işə götürülməsi üçün əlavə iş yerlərinin yaradılması istiqamətində səylərini artırmalıdırlar. Yerli icra hakimiyyəti orqanları yeni istehsal müəssisələrinin açılması, iş yerlərinin yaradılması məqsədilə sahibkarları yeni layihələrin icrasına cəlb etməli, onların fəaliyyəti üçün zəruri şərait yaratmalıdırlar.

Qeyd olunmuşdur ki, sahibkarlar və iş adamları üçün əlverişli biznes mühitinin yaradılması məqsədilə mütəmadi olaraq vergi sistemində mütərəqqi islahatlar aparılır, məhsul istehsalçıları, xüsusilə aqrar sektorda çalışanlar üçün vergi güzəştləri tətbiq olunur. Vergi Məcəlləsində cari il yanvar ayının 1-dən qüvvəyə minən dəyişikliklər vergi yükünün əhəmiyyətli dərəcədə aşağı salınmasına, sahibkarlıq subyektlərinin sərəncamında daha çox sərbəst vəsaitin qalmasına xidmət edir. Dövlət sahibkarlığın inkişafına maraq göstərdiyi kimi, sahibkarlar da dövlətin qüdrətlənməsi naminə səylərini artırmalıdırlar. Çünki dövlət büdcəsi əsasən vergi daxilolmaları hesabına formalaşır. Bu xüsusat nəzərə alınaraq hər bir sahibkar milli mənafeni, xalqa, vətənə xidmət amalını diqqətdə saxlamalı, öhdəliklərini layiqincə yerinə yetirməlidir. Bunun üçün isə vergilər vaxtında ödənilməli, işçilər üçün normal iş şəraiti yaradılmalı, onlar işə yalnız əmək müqaviləsi ilə götürülməli, ödənilən əməkhaqları reallığı əks etdirməlidir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Vergilər Nazirliyi və Dövlət Sosial Müdafiə Fondu ilə birlikdə işçilərlə işəgötürənlər arasında əmək müqavilələrinin bağlanması vəziyyətinə nəzarəti artırmalıdırlar.

Ali Məclisin Sədri demişdir: Ərzaq təhlükəsizliyinin təmin olunmasında kənd təsərrüfatının rolu əvəzsizdir. Bu sektorun inkişafı üçün dövlət tərəfindən bir sıra stimullaşdırıcı tədbirlər həyata keçirilir. Aqrar sahədə məhsul istehsalçılarının 2019-cu ilədək torpaq vergisi istisna olmaqla digər vergilərdən azad edilməsi, fermerlərə satılan gübrəyə, yanacaq və motor yağlarına görə verilən subsidiyaların həcminin artırılması, "Aqrolizinq" xətti ilə gətirilən texnikaya yeni güzəştlərin tətbiqi və digər tədbirlər aqrar sahənin davamlı inkişafına hesablanıb. Bu, öz nəticəsini göstərməlidir. Əksər kənd təsərrüfatı və ərzaq məhsullarına olan tələbatın daxili imkanlar hesabına ödənilməsi təmin edilməli, ilk növbədə, əkinəyararlı torpaq sahələrindən istifadəyə diqqət artırılmalıdır. Kənd Təsərrüfatı Nazirliyi, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi və yerli icra hakimiyyəti orqanları bitkiçilik məhsullarının rayonlar üzrə yerli şəraitə uyğun əkilməsi, növbəli əkin sisteminin tətbiqi və torpaqların münbitliyinin artırılması ilə əlaqədar tədbirlər görməlidirlər. Yeni texnologiyaların, mütərəqqi əkin və suvarma metodlarının tətbiqinə diqqət artırılmalı, əkin üçün keyfiyyətli, məhsuldar toxum sortlarından istifadə olunmalıdır. Əkilməyən boş torpaq sahələrinin əkin dövriyyəsinə cəlb olunması təmin edilməlidir. Yerli icra hakimiyyəti orqanları dövlət və bələdiyyə

*Ardı 2-ci səhifədə*

fondunda, həmçinin xüsusi mülkiyyətdə olan əkinəyararlı torpaqların istifadəsi ilə bağlı təhlillər aparmalı və sahibkarlara boş ərazilər haqqında məlumat verərək həmin ərazilərdən səmərəli istifadə üçün əlverişli şərait yaratmalıdırlar. "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti və yerli icra hakimiyyəti orqanları istehsalçıları gübrə ilə vaxtında təchiz etməli, Kənd Təsərrüfatı Nazirliyi gübrələrdən normalara uyğun istifadə ilə bağlı maarifləndirici və nəzarət tədbirlərini artırmalıdır.

Bildirilmişdir ki, mövsüm ərzində tələbatdan artıq istehsal olunmuş məhsulların soyuducu anbarlar tərəfindən alınması nəzarətdə olmalı, məhsul istehsalçıları ilə səmərəli əməkdaşlıq qurulmalıdır. Bu tədbirin təşkilinə İqtisadiyyat Nazirliyi və yerli icra hakimiyyəti orqanları bilavasitə məsuliyyət daşıdıqlarını yadda saxlamalıdırlar. Muxtar respublikanın aqrar sektorunda məhsul istehsalı, əsasən, kiçik təsərrüfatlar tərəfindən həyata keçirilir. Lakin məhsuldarlığın artırılması və istehsal xərclərinin azaldılması üçün iri təsərrüfatların yaradılmasına da ehtiyac vardır. Belə təsərrüfatlarda son texnoloji nailiyyətlərə əsaslanan heyvandarlıq və quşçuluq komplekslərinin yaradılması diqqətdə saxlanmalıdır. Son illərin təcrübəsi göstərir ki, süni mayalanmanın tətbiqi heyvandarlığın inkişafında mühüm əhəmiyyətə malikdir. Ölkə başçısının ötən il imzaladığı sərəncamla süni mayalanma yolu ilə alınmış hər buzova görə subsidiyanın müəyyən olunması fermerlərin də bu sahəyə marağını artırmışdır. Dövlət Baytarlıq Xidməti süni mayalanmanın tətbiqini daha da genişləndirməli, mal-qaranın cins tərkibinin yaxşılaşdırılmasına nail olmalıdır. Kənd Təsərrüfatı Nazirliyi Dövlət Baş Sığorta Agentliyi ilə birlikdə məhsul istehsalçılarının risklərdən qorunması üçün əkin sahələrinin və mal-qaranın sığortalanması ilə bağlı maarifləndirmə işləri aparmalıdırlar.

Ali Məclisin Sədri demişdir: Dövlət orqanları tərəfindən mal-materiallar alınarkən israfçılığa, izafi xərclərə yol verilməməli, əsasən yerli məhsullardan istifadə bir vətəndaş münasibəti formasını almalıdır. Yerli məhsullara üstünlük verilməsi, öz növbəsində, yerli istehsalın inkişafını dəstəkləməklə yanaşı, xərclərin azaldılmasına, məşğulluğun artırılmasına xidmət edəcəkdir. Bir sözlə, qarşıda bizi mühüm vəzifələr gözləyir. Bu vəzifələrin icrası, sahibkarlıq sahəsində fəaliyyətin genişləndirilməsi üçün hər cür imkan və şərait vardır. Ölkəmizdə, eləcə də muxtar respublikamızda iqtisadi islahatlar həyata keçirilir. Bunun əsas məqsədi sahibkarlıq strukturlarında fəaliyyəti gücləndirməklə iqtisadi qüdrətimizin artırılmasına, əhalinin rifah halının daha da yaxşılaşdırılmasına nail olmaqdır.

Ali Məclisin Sədri bu yolda hər kəsə uğurlar arzulamışdır.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Famil Seyidov çıxış edərək demişdir ki, muxtar respublikada sosial-iqtisadi inkişaf proqramlarının icrası iqtisadi potensialın artmasına, biznes və investisiya mühitinin yaxşılaşmasına və əhalinin rifahının yüksəlməsinə şərait yaratmışdır. 2015-ci ildə muxtar respublikada ümumi daxili məhsul istehsalının həcmi bir il öncəyə nisbətdə 1,7 faiz artaraq 2 milyard 467 milyon 422 min manat təşkil etmişdir. Görülən işlər ixracın həcminin artmasına da öz təsirini göstərmiş, 2015-ci ildə 316 milyon 797 min ABŞ dollarından artıq sənaye məhsulu ixrac olunmuşdur. Bu dövrdə aqrar sektorun çoxsahəli inkişafına da nail olunmuş, 402 milyon 992 min manatlıq kənd təsərrüfatı məhsulu istehsal edilmişdir. Famil Seyidov özəl sektorun inkişafına göstərilən diqqət və qayğıya görə muxtar respublika sahibkarları adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.



"Ləzzət Qida Sənaye" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Teymur Rzayev çıxış edərək demişdir ki, iqtisadiyyatın sürətli inkişafı, dünyanın qabaqcıl texnologiyalarının muxtar respublikaya gətirilməsi və tətbiqinə şərait yaradılması, Sahibkarlığa Kömək Fondu tərəfindən kreditlərin verilməsi "Ləzzət Qida Sənaye" Məhdud Məsuliyyətli Cəmiyyətinin də fəaliyyətini genişləndirib, cəmiyyətin müasir istehsal və emal müəssisələri yaradılıb. Hazırda müəssisənin tərkibinə gündəlik istehsal gücü 18 ton olan kənd təsərrüfatı məhsullarının təmizlənməsi, çeşidlənməsi, qovrulması və paketlənməsi, 7 ton qənd, 2,4 ton olan vafli, peçenye, biskvit və digər qənnadı məmulatları, 45 gündə 135 ton quş əti istehsalı, saatda 1500 baş toyuq kəsim sahələri fəaliyyət göstərir. Müəssisənin məhsulları daxili tələbatı ödəməklə yanaşı, İran və Gürcüstana da ixrac olunur, Rusiya, ABŞ, Ukrayna, Türkiyə, Çin, Hindistan, İran və digər ölkələrdən olan 50-dən artıq istehsalçı firma ilə əməkdaşlıq edilir.

Şərur rayonundakı Cəlilkənddə fəaliyyət göstərən çörək istehsalı sahəsinin sahibkarı Rüxsarə Ağayeva demişdir ki, yaradılan yeni müəssisələrin əhalinin yerli məhsullara olan tələbatının ödənilməsindəki payı günü-gündən artmaqdadır. Bütün bunlar isə sahibkarlığın inkişafına və əhali rifahının yaxşılaşdırılmasına göstərilən diqqət və qayğının daha bir ifadəsidir. Sahibkarlığın, o cümlədən kiçik biznesin inkişafı, yeni iş yerlərinin yaradılması məqsədilə məşğulluğun artırılması sahəsində həyata keçirilən uğurlu siyasət qadın sahibkarların da bu proseslərdə yaxından iştirakına şərait yaratmışdır. Muxtar respublikada həyata keçirilən geniş quruculuq tədbirlərində yaxından iştirak etmək və sosial-iqtisadi inkişafa töhfə vermək məqsədilə 2015-ci ildə Şərur rayonundakı Cəlilkənddə lavaş istehsalı müəssisəsi yaratmışıq. Dövlət qayğısından bəhrələnən bu müəssisəyə Sahibkarlığa Kömək Fondundan maliyyə dəstəyi göstərilib. Müəssisə yerləşdiyi kəndin və yaxın yaşayış məntəqələrinin tələbatını tam ödəyir.

Babək rayonu Nehrəm kəndində fəaliyyət göstərən fiziki şəxs Rafiq Əliyev çıxışında qeyd etmişdir ki, muxtar respublikada güclü özəl sektor formalaşmışdır. Yaradılan münbit şəraitdən yararlanaraq 2015-ci ildə Babək rayonunun Nehrəm kəndində süd məhsullarının emalı müəssisəsinin fəaliyyətə başlamasına nail olmuşuq. Müəssisədə istehsal sahəsi ilə yanaşı, hazır məhsulların saxlanılması üçün soyuducu kamera da qurulub. Burada 750 qramlıq şüşə, 300 və 500 qramlıq, həmçinin 2 kiloqramlıq saxsı qablarda süd məhsullarının istehsalı həyata keçirilir. Avadanlıqların müasir texnologiyaya malik olması keyfiyyətli məhsul istehsalına imkan yaratmışdır. Müəssisənin yerli xammal əsasında fəaliyyət göstərməsi istehsal olunan məhsulların bazar qiymətlərinə uyğun satışının həyata keçirilməsinə imkan verir.

Sahibkarlar yaradılan şəraitə görə minnətdarlıq etmiş, muxtar respublikanın inkişafı və tərəqqisi naminə bundan sonra da əzmlə çalışacaqlarını, göstərilən etimadı doğruldacaqlarını bildirmişlər.

Ali Məclisin Sədri 2016-cı ildə muxtar respublikada ixrac potensiallı müəssisələrin sayının artırılmasının vacibliyini bildirmiş, əl işlərinin və ixracyönümlü məhsulların internet kataloqunun hazırlanması, satışı və təşviqi, o cümlədən daxili bazarın təhlil olunması, qapalı müəssisələrin və xidmət sahələrinin tələbatının yerli istehsal hesabına ödənilməsi barədə tapşırıqlar vermiş, keyfiyyətli və ixrac potensiallı məhsullar istehsal edən sahibkarlara təşəkkür etmişdir.

Sonra Ali Məclisin Sədri yeni istehsal və xidmət sahələrinin yaradılması üçün 7 sahibkara güzəştli kreditlərin çeklərini təqdim etmişdir. Bu kreditlər avtomobil şinlərinin yenidən emalı sahəsinin, quşçuluq, maldarlıq və heyvandarlıq təsərrüfatlarının yaradılmasına, dəri emalı sahəsinin fəaliyyətinin genişləndirilməsinə sərf olunacaqdır.

Tədbirdə 2015-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafından bəhs edən film nümayiş olunmuşdur.

Sonda Ali Məclisin Sədri Naxçıvan Biznes Mərkəzinin sərgi salonunda muxtar respublikada istehsal olunan məhsullardan ibarət sərgiyə baxmışdır.

Sərgi salonunda 97 müəssisənin 136 növdə və 916 çeşiddə məhsulu, müxtəlif sənətkarlar tərəfindən hazırlanan əl işləri və rəsm əsərləri nümayiş olunurdu. Həmçinin burada Naxçıvan Muxtar Respublikasının istehsal müəssisələrinin xəritəsi qoyulmuşdur. Bildirilmişdir ki, muxtar respublikada dövlət maliyyə dəstəyi və sahibkarların şəxsi vəsaiti hesabına ötən il 63 istehsal və xidmət sahəsi yaradılmışdır. Hazırda muxtar respublikada kənd təsərrüfatı, metallurgiya, kimya, qida və emal sənayesi sahələri üzrə 24 istehsal, eləcə də 7 xidmət sahəsinin yaradılması istiqamətində işlər davam etdirilir.

Naxçıvan Avtomobil Zavodunda istehsal olunan avtomobillərə baxış zamanı bildirilmişdir ki, zavodda tələbata uyğun, eləcə də sifariş əsasında 12 modeldə avtomobil istehsal olunur. Müasir təchizatı, dizaynı və interyeri ilə seçilən, avtomatik və mexaniki sürət qutusu ilə təchiz olunan minik avtomobilləri AVRO-5 standartlarına cavab verir. Bu da yerli tələbatı ödəməklə yanaşı, həm də ixrac potensialı yaradır. Rahat və keyfiyyətli olması, sərfəli kredit və münasib qiymətlərlə təklif edilməsi, eyni zamanda ehtiyat hissələrinin satışının həyata keçirilməsi alıcıların bu avtomobillərə üstünlük verməsinin əsas səbəblərindəndir. Gələcəkdə müəssisədə tələbata uyğun olaraq yeni modellərin yığılmasına da başlanılacaqdır.

Ali Məclisin Sədri zavodda keyfiyyət amilinə ciddi diqqət yetirilməsi və avtomobillərin ehtiyat hissələrinin istehsalına başlanılması barədə tapşırıq vermişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Nizam-intizam mədəniyyəti və ya inkişafın başlıca amili

Nizam-intizam həmişə bütün uğurların başlanğıcı hesab edilib. Hərtərəfli inkişafa da nizam-intizam olan yerdə nail olmaq mümkündür. Harada nizam-intizam varsa, mütləq orada ağıl və düşüncə, vəzifə və vətəndaşlıq borcuna məsuliyyət hissi var. Odur ki, insanda intizam qaydalarına əməl etmək kimi müsbət bir keyfiyyətin formalaşması həmişə onu xoşbəxtliyə aparıb. Bu gün də belədir, sabah da belə olacağı şəksizdir. İntizamı vərdişə çevirməyin əsas yollarından biri isə insan əməyini düzgün tənzimləyən iş rejimidir. Lakin iş rejimi dedikdə heç də insanların sadəcə olaraq işə vaxtında gəlib-getmələri nəzərdə tutulmamalıdır. Çünki işə kimin əvvəlcə başlaması şərt deyil, onu kimin necə başa çatdırması önəmlidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin dediyi kimi: ***"Nizam-intizam sadəcə olaraq vaxtında işə gəlib-getmək deyil. Bu, görülən işə görə məsuliyyəti və öz fəaliyyətinə şüurlu yanaşmanı nəzərdə tutan geniş anlayışdır"***.

Nizam-intizam hər bir kəsin tutduğu vəzifədən, çalışdığı sahədən asılı olmayaraq, daşıdığı məsuliyyət hissinin əsas göstəricisidir. Hər kəs gördüyü işin əhəmiyyətini, onun dövlətə və xalqa verəcəyi faydanı yaxşı dərk etməli, vicdanla, canla-başla işləməli və əlbəttə ki, gördüyü işdən mənəvi zövq almalıdır.

Bu məqamda müdrik bir məsəli xatırlamaq yerinə düşər: üç nəfər nəsə tikirmiş. Üçü də eyni bir işi görürmüş. Lakin onlardan soruşanda ki, nə iş görürlər, müxtəlif cavablar alırlar. Onlardan biri deyir: "daş yonuram", o biri deyir: "çörək pulu qazanıram", üçüncüsü isə deyir ki: "məbəd tikirəm".

Burada üçüncü adamın cavabı diqqət çəkir. Düşünürsən: o şəxs niyə belə cavab verir? Çünki gördüyü işə o qədər doğma münasibət bəsləyir ki, ona məbəd kimi baxır. İş yerində vaxtını boş-boşuna keçirən, dəqiqələri, saatları sayanların isə adı başqadır...

Həyatda hər kəs yararlı bir iş görməli, əzəmətli dünya binasının bünövrəsinə öz əli ilə bir kərpic hörməlidir, – deyiblər. Yaxşı iş insanın yalnız sağ ikən üzünü ağ etmir, o həm də bu dünyada əbədi olaraq qalır və hörmətlə xatırlanır. Görkəmli mütəfəkkirlərdən birinin sözüdür: "İş insandan sonra qalan yeganə şeydir. Sən artıq yoxsan, sən artıq başqaları üçün iş olmusan və sənin zəhmətin hələ uzun müddət səndən sonra yaşayacaq, səni yada salacaq". Hər birimizi yaşadan, həyatımızı mənalı edən gördüyümüz işdir. Bu işin məzmunundan asılı olmayaraq, real dəyər qazanması insanın nizam-intizam xarakterindən doğan münasibətindən asılıdır. Təbii, vərdişə çevrilən bu münasibət, sözsüz ki, insanın nüfuzunu artırır. Unutmaq olmaz ki, hər bir insan öz işinin övladıdır. Nizam-intizamın yaxşı mənada vərdişə çevrilməsi insanı öz peşəsinə, sənətinə də qırılmaz tellərlə bağlayır. O, daim bununla nəfəs alıb yaşayır. Bu adamlar ən gərgin anlarda belə, öz peşəsinə dönüklük etmir, saxta iş görməyi şəxsiyyətlərinə sığışdırmır, təmiz adlarına layiq görmürlər. İnsanlarda əsas keyfiyyətlərdən biri kimi nizam-intizam hisslərinin möhkəmlənməsində onlar üçün yaradılan şərait də mühüm rol oynayır. Bu gün muxtar respublikamızda fəaliyyət göstərən idarə, müəssisə və təşkilatlarda elə bir əlverişli şərait yaradılıb ki, orada çalışanlar özlərində böyük məsuliyyət hiss edirlər. Məqsəd isə ondan ibarətdir ki, hər bir kəs gördüyü işin əhəmiyyətini, onun dövlət və xalq üçün faydasını dərindən dərk etsin, gördüyü işdən xüsusi zövq alsın.

Bir sözlə, 2016-cı ilin "Nizam-intizamın daha da möhkəmləndirilməsi ili" elan olunması insanların bu məsuliyyət hissini bir daha artırır. Çünki əvvəldə də vurğuladığımız kimi, harada nizam-intizam varsa, orada uğur olar. Harada qayğı, əməyə qiymət, vətənpərvərlik, vicdan varsa, orada irəliləyiş, inkişaf olar. Bəli, bu gün dünya ölkələrini bürüyən qlobal iqtisadi böhranın təsirindən qorunmağımızın, böyük nailiyyətlər əldə etməyimizin əsas səbəbi də məhz budur: uğurla qurulmuş və əhalinin ən geniş kütlələrinin etimadına əsaslanmaqla səmərəli antiböhran idarəçiliyi həyata keçirməyi bacaran hakimiyyət və güclü nizam-intizam!

**Sara ƏZİMOVA**

## "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyəti ötən ayı uğurla yekunlaşdırıb

2016-cı ilin yanvar ayında dəmir yolu vasitəsi ilə muxtar respublika ərazisindəki ayrı-ayrı tikinti təşkilatlarına 600 ton müxtəlif təyinatlı yük daşınmış, nəqliyyatın bu növündən 11 min 800 sərnişin istifadə etmişdir. Daşımaların nümunəvi təşkili məqsədilə lazımi işlər görülmüş, yollarda hərəkətin təhlükəsizliyi təmin olunmuşdur. Bu dövrdə Culfa Lokomotiv Deposunda lokomotivlər 5 dəfə texniki baxışdan keçirilmiş, 1 elektrovoz cari təmir edilmişdir. Culfa Vaqon Deposunda isə 2 vaqon cari təmir olunmuş, 1 sərnişin vaqonunda istilik sisteminin bərpası işləri davam etdirilmişdir.

Qış aylarında hərəkətdə fasilələrin yaranmaması üçün də bütün zəruri tədbirlər görülür. Belə ki, ötən ay mütəmadi olaraq baş və stansiya yollarına baxış keçirilmiş, süni tikililər, küvet və yol yataqları təmizlənmişdir. Xidməti ərazidəki bütün körpü və keçidlər, yol yatağı, yoldəyişdirici və süni qurğular mütəmadi yoxlanılmış, polad relslərin istismara yararlılığına nəzarət olunmuşdur.

Rabitə və işarəvermə sahəsinin əməkdaşları da işini günün tələbləri səviyyəsində qurmuş, qatarların hərəkətinin təhlükəsizliyini təmin etmək məqsədilə Qıvraq stansiyasında 24 müxtəliftipli rele və lokomotivlərdə 5 blok dəyişdirilmişdir. Ay ərzində elektrik ötürücü hava və kontakt şəbəkəsi xətlərində təmir işləri aparılmış, dəmir yolu obyektləri və elektrovozlar fasiləsiz elektrik enerjisi ilə təmin olunmuşdur. Bu dövrdə Texniki İnzibati Binaların Təmir-Tikinti İdarəsi Ordubad dəmiryol sərnişin vağzalı və Ordubad Yol Sahəsinin inzibati binalarında yenidənqurma, Ordubad İdarəetmə Mərkəzi və Yol Sahəsinin yardımçı binalarında isə əsaslı təmir işlərini davam etdirmişdir.

***"Naxçıvan Dəmir Yolları"***
***Məhdud Məsuliyyətli Cəmiyyəti***



*1979-cu il fevralın 11-də İran xalqı öz müqəddəratını təyin etmiş, İran İslam Respublikası yaranmışdır. Həmin tarixdən başlayaraq hər il fevralın 11-i İran İslam Respublikasında Milli Bayram – İslam İnqilabı Günü kimi qeyd olunur.*

# Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikasının yaxın vilayətləri arasında əlaqələr inkişaf etdirilir

Azərbaycanla və onun Naxçıvan Muxtar Respublikası ilə İran arasında əlaqələr xalqlarımızın mənafeyinə uyğun olaraq inkişaf və davam etdirilir. Ötən əsrin 90-cı illərində ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulan Azərbaycan-İran əlaqələri bu gün keyfiyyətcə yeni mərhələyə yüksəlmişdir. Son illər hər iki ölkə tərəfindən imzalanan sənədlər, əldə olunan razılıqlar, münasibətlərin daha da genişləndirilməsi istiqamətində atılan addımlar siyasi, iqtisadi və mədəni sahədə əlaqələrin dərinləşməsi üçün yeni imkanlar açmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: *"Bu gün İran ilə Azərbaycan arasındakı münasibətlər nəinki iki ölkə arasındakı münasibətlər kimi formalaşıbdır, eyni zamanda, münasibətlərimizin bölgədə gedən proseslərə mühüm təsiri vardır. İran-Azərbaycan münasibətləri bölgənin inkişafı üçün önəmli amilə çevrilibdir".*

Bu gün Naxçıvan Muxtar Respublikasının İran İslam Respublikası ilə sərhədində beynəlxalq statusa malik Culfa və Şahtaxtı dövlət sərhəd-buraxılış məntəqələri fəaliyyət göstərir. Naxçıvan Muxtar Respublikasının Culfa Gömrük İdarəsinin və Şahtaxtı Gömrük İdarəsinin sərhəd-keçid kompleksinin müasir tələblər səviyyəsində tikilib istifadəyə verilməsi, beynəlxalq standartlara cavab verən avadanlıqlarla təchiz olunması gediş-gəlişi sadələşdirmişdir. Həmçinin Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasındakı dövlət sərhədinin nəzarət-buraxılış məntəqələrində və Naxçıvan Beynəlxalq Hava Limanında muxtar respublikamıza səfər edən İran vətəndaşlarına sadələşdirilmiş qaydada viza olmayan birdəfəlik giriş icazələri verilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İranın qonşu vilayətləri arasında əlaqələrin uğurla inkişaf etdiyini bildirərək demişdir: *"Bu gün Azərbaycan-İran əlaqələrinin inkişafına Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İranın yaxın vilayətləri arasında əlaqələrin dərinləşməsi də öz töhfəsini verir. Mövcud imkanlardan səmərəli istifadə və qarşılıqlı rəsmi səfərlər əlaqələrimizin davamlı olması üçün möhkəm təməl yaratmışdır. Son illər energetika, kənd təsərrüfatı, təhsil, səhiyyə, mədəniyyət, turizm və idman sahələrində əməkdaşlıq imkanları genişlənmişdir. Bütün bunlar Azərbaycan-İran əlaqələrinin sarsılmazlığından xəbər verir".*

İran İslam Respublikası ilə qurulan iqtisadi münasibətlər sahibkarlıq subyektlərinin qarşılıqlı əlaqəsində də özünü göstərməkdədir. Muxtar respublikanın sahibkarları dəvət əsasında İran İslam Respublikasında keçirilən sərgilərdə iştirak edərək istehsal etdikləri məhsulları nümayiş etdirirlər.



Naxçıvan Muxtar Respublikasının İran İslam Respublikası ilə təhsil sahəsində də əlaqələri vardır. Naxçıvan Dövlət Universiteti İran İslam Respublikasının Tehran və Təbriz universitetləri ilə müxtəlif tarixlərdə imzalanmış müqavilələr əsasında əməkdaşlıq edir. Ötən dövrdə İran İslam Respublikasının yaxın vilayətlərində fəaliyyət göstərən universitetlərin rektor və professor-müəllim heyətinin Naxçıvana səfər etməsi, Naxçıvan Dövlət Universitetində, Təhsil Nazirliyində, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində görüşlərin keçirilməsi elm və təhsil sahəsindəki əlaqələrin inkişafına yeni imkanlar açmışdır.

Azərbaycan-İran əlaqələri ortaq dəyərlərə və mehriban qonşuluq prinsiplərinə əsaslanır. Bu əlaqələr gələcəkdə daha da inkişaf edəcəkdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**



***Azərbaycanın Naxçıvan Muxtar Respublikasının mədəniyyət xəzinələri, təəssüf ki, YUNESKO daxil olmaqla digər mədəniyyət, elm və təhsil məsələləri ilə məşğul olan beynəlxalq təşkilatların diqqətindən kənarda qalmışdır.***

*Naxçıvan xarici mediada*

# Naxçıvanın müqəddəs abidələri beynəlxalq ekspertləri salamlayır

Şərur rayonunda onilliklərdir aparılan tədqiqatlar nəticəsində aşkar olunan arxeoloji abidələr Naxçıvanı Daş və Tunc dövrlərinə aid tədqiqatların aparılmasına imkan verən mühüm bir əraziyə çevirmişdir. Bu ərazidə YUNESKO ekspertləri və digər tədqiqatçılar qədim keçmişimizlə bağlı cavabsız qalan suallara cavab tapa bilərlər.

***Ağzırət piri*** – Şərur rayonunun Yuxarı Yaycı kəndinin şərqində təbii qayalığın içərisində olan oyuqda yerləşir. Bu ziyarətgah yerli alimlər tərəfindən geniş şəkildə tədqiq edilmişdir. Ziyarətçilər pirin olduğu təbii oyuğa şimal tərəfdən salınmış dar cığırla gedə bilərlər. Bu abidə özündə bir çox qədim əfsanələri birləşdirdiyi üçün yerli əhali tərəfindən müqəddəs yer kimi qəbul edilir. "Naxçıvan Abidələri Ensiklopediyası"na əsasən, bura gələn ziyarətçilər mağaranın ətrafındakı balaca daşın üzərində şamı yandıraraq öz ibadətlərini yerinə yetirirlər.

Azərbaycan Respublikasının arxeoloqları Ağzırət pirinin içərisindən və ətrafından orta əsrlərə aid olan çıraq və çoxlu sayda keramika nümunələri aşkar etmişlər. Pirin aşağı mərtəbəsində təbii mağaranın içərisindən su damır, onun qarşısında isə tut ağacı var. Bu ağac və pirin suyu müqəddəs hesab olunur. Pirin yaxınlığında olan daşlardan birinin üzərində yeddi dırnaq izi vardır. Xalq arasında bu daş "Qatır dırnağı" adlanır. Əfsanəyə görə Ağzırət deyilən zağada düşmənlərdən qorunan camaat elin igidlərinin məğlub olduğunu, düşmənin isə çox olduğunu görəndə qız-gəlinlər əl ə keçməsinlər deyə Allaha yalvarırlar ki, onları daş eləsin. Zağalara girən düşmən hər tərəfdə daş adamlarla rastlaşır. Deyilənə görə, bura ziyarətə gələnlər niyyətlərinin baş tutub-tutmayacağını bilmək üçün xırda daşlardan götürüb gəlin daşın




başına atırlar. Daş orda qalsa, deməli, niyyət qəbul olunur. Pirin ərazisində tapılan keramika məmulatı orta əsrlərə aid olsa da, ətrafda Tunc dövrünə aid abidələrin olması onun qədim dövrdən ziyarətgaha çevrildiyini deməyə əsas verir. Ağzırət pirini eramızdan əvvəl III-II minilliklərə aid etmək olar.

***Ağsal nekropolu*** – Culfa rayonu ərazisində, Əlincəçayın sağ sahilində, Milax kəndindən şimal-şərqdə Tunc dövrünə aid arxeoloji abidədir. Burada vaxtilə böyük nekropol olmuş və oradan boyalı qablar tapılmışdır. Əlincəçayın sahilində böyükhəcmli arxeoloji xəzinələr vardır ki, bu xəzinələr Xəzər regionunun qədim mədəniyyətinin geniş tədqiq edilməsinə kömək edir, həmçinin Tunc dövrünə aid kənd təsərrüfatı alətləri və insanların həyat tərzinə aid yeni məlumatların əldə olunmasına imkan verir. Naxçıvan ərazisində mövcud olan arxeoloji maddi-mədəniyyət nümunələri və abidələr Tunc dövrü və qədim tarix üzrə ixtisaslaşmış beynəlxalq tədqiqatçıların bura səfərini gözləyir.

***Axaməd yaşayış yeri*** – Şərur rayonunda eyniadlı kəndin cənub-qərbində I minilliyə aid yaşayış yeridir. Ərazidə vaxtaşırı aparılan qazıntılar zamanı buradan iri tikili daşları, daş əmək alətləri (dən daşı) və keramika məmulatları tapılmışdır. 2001-ci ildə ərazidə aparılan arxeoloji tədqiqatlar zamanı buradan qeyri-adi gildən hazırlanmış maddi-mədəniyyət nümunələri də aşkarlanmışdır. Bu qədim materiallar Azərbaycandakı mədəniyyət, etnoqrafik proseslərin təkamülü və kənd təsərrüfatı alətləri barədə yeni məlumatlar verir. Naxçıvan arxeoloqlarının aşkarladığı mühüm maddi-mədəniyyət nümunələri əhəmiyyətliliyinə görə sərhədləri və ölkələri aşmışdır. Lakin beynəlxalq təşkilatlardan olan YUNESKO və digər BMT təşkilatları qədim ticarət yolunun mərkəzində yerləşən və bu günə qədər də davam edən silahlı münaqişələrin mərkəzində olan dünyanın bu hissəsinə ciddi diqqət etməmişlər.

**Peter TASE**
***07.02.2016***
***Amerika Birləşmiş Ştatlarının "Foreign Policy News" qəzeti***

# Naxçıvan Muxtar Respublikasının yaradılmasının 92-ci ildönümü ilə bağlı tədbir

Ordubad Rayon Mədəniyyət Evində keçirilən tədbirin aparıcısı qeyd etmişdir ki, Naxçıvan Muxtar Respublikasının yaradılması Azərbaycanın tarixində çox mühüm və əhəmiyyətli hadisədir. Naxçıvan çox mürəkkəb, çətin və şərəfli tarixi inkişaf yolu keçmişdir. 1924-cü il fevralın 9-da Azərbaycan MİK-in Rəyasət Heyəti Naxçıvan diyarının Naxçıvan MSSR-ə çevrilməsi haqqında tarixi dekret qəbul etmişdir. Düzdür, 1921-ci ildən 1924-cü ilədək, yəni muxtariyyət statusundan muxtar respublikanın təşkilinə kimi çoxsaylı müzakirələr getmişdir. Bu müzakirə və danışıqlar bölgənin statusunun müəyyənləşməsində əhəmiyyətli rol oynamış, böyük çətinliklər nəticəsində buna nail olunmuşdur. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Naxçıvanın muxtariyyəti məsələsinə öz münasibətini dəfələrlə bildirmiş və bu hadisənin əhəmiyyətini qeyd edərək demişdir: ***"Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir. Biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən çox böyük bir amildir. Biz bu amili qoruyub saxlamalıyıq".***



Sonra Naxçıvan Dövlət Filarmoniyasının təşkilatçılığı ilə "Rast dəstgahı" muğam konserti olmuşdur. Azərbaycan Respublikasının Xalq artistləri Qurban Qasımov, Vilayət İsmayılov, Naxçıvan Muxtar Respublikasının Əməkdar artistləri Hünər Əliyev, Xatirə Səfərova, Zülfüqar Mahmudov, müğənnilər Qəribə Həsənova və Nərmin Hüseynlinin ifasında "Rast" muğamının şöbə və guşələrindən muğamlar ifa edilmişdir.

Xanəndə və müğənniləri Azərbaycan Respublikasının Əməkdar artisti Elman Əliyev (tarda), Naxçıvan Muxtar Respublikasının Əməkdar artistləri Aqib Seyidov (kamançada), Qasım Bağırov (balabanda), Məmmədəli Babayev (nağarada), həmçinin Sevinc Babayeva (qanunda), Sərxan Abdullayev (udda), Nihad Quliyev (balabanda) müşayiət etmişlər.

"Rast dəstgahı" muğam konserti rayon ictimaiyyəti tərəfindən maraqla qarşılanmışdır.

**Əli RZAYEV**

*Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) Naxçıvan Muxtar Respublikası Regional Bölməsinin nəzarətçi-müəllimlər üçün keçirdiyi seminar-məşğələlərə yekun vurulub.*

# Nəzarətçi-müəllimlər üçün keçirilən seminar-məşğələlər başa çatıb

Muxtar respublikanın şəhər və rayonlarında keçirilən məşğələlərdə 650 nəzarətçi-müəllim iştirak edib. Məşğələlərin keçirilməsində məqsəd imtahan texnologiyalarını və imtahanın gedişi ilə bağlı prosedur qaydalarını izah etməkdən, nəzarətçi-müəllimlərin fərdi keyfiyyətləri ilə yaxından tanış olmaqdan, şəxsi anket məlumatlarını dəqiqləşdirməkdən, abituriyent auditoriyasının – imtahan zalının idarə olunmasında professionallıq baxımından mühüm məqamları qeyd etməkdən ibarət olub.

Məşğələlərdə nəzarətçilərin imtahan prosesi ilə əyani surətdə tanış olmaları məqsədilə imtahan texnologiyası barədə film nümayiş etdirilib, imtahanın gedişi ilə bağlı prosedur qaydalar izah olunub.

Seminar-məşğələlərdə iştirakçıların sualları cavablandırılıb, nəzarətçi-müəllimlər üçün keçirilən onlayn testin nəticələri müzakirə edilib, onların şəxsi anket məlumatları dəqiqləşdirilib.

İştirakçılar (xüsusən ilk dəfə cəlb olunan, təcrübəsi az olan nəzarətçi-müəllimlər) TQDK tərəfindən aprel-may aylarında keçiriləcək sınaq imtahanlarına cəlb olunacaqlar. Bu da onların seminarlarda əldə etdikləri nəzəri biliklərin təcrübədə tətbiqinə kömək göstərəcək. Sınaq imtahanlarında nəzarətçi kimi özünü doğruldan müəllimlər test imtahanlarına cəlb olunacaqlar.

# Xanlıqlar kəndindəki "İmamzadə" türbəsi bərpa olunub

*Hazırda türbədə son tamamlama işləri aparılır*

Son illər muxtar respublika ərazisindəki dini-mədəni abidələr və ziyarətgahlar bərpa olunur, milli-mənəvi dəyərlərimizin yaşadılmasına və təbliğinə diqqət yetirilir. Bu sahədə həyata keçirilən tədbirlərin davamı olaraq, Şərur rayonunun Xanlıqlar kəndi ərazisindəki qədim "İmamzadə" türbəsi də bərpa olunaraq əvvəlki görkəminə qaytarılıb. "İmamzadə"nin tarixi görkəmi və qədim memarlıq elementləri qorunub saxlanılıb.

Xatırladaq ki, qədim "İmamzadə" türbəsi giriş və salondan ibarətdir. Aşağıdan kvadrat şəklində inşa edilən bu abidənin yuxarı hissəsi tağvari günbəzlə örtülüb. Tədqiqatçıların fikrincə, "İmamzadə" türbəsi XVI-XVII əsrlərə aiddir. Əvvəllər binanın daxilində bir məzar və daş kitabə olub. 1928-ci ildə tədqiqatçılar kompleksdə olarkən qəbrin üzərində ərəb əlifbası ilə "İbrahim ibn Musa" yazıldığını müəyyənləşdiriblər. 1988-ci ildə nəşr olunmuş "Xanlıqlar İmamzadəsi" adlı məlumat kitabçasında da bu məzarın yeddinci imam Museyi-Kazımın oğlu İbrahimə məxsus olduğu yazılıb. Naxçıvan şəhərində yaradılmış ilk Diyarşünaslıq Muzeyindəki əlyazmalarda və elmi-tarixi məqalələrdə, həmçinin Bakıda nəşr olunmuş "Azərbaycanı öyrənmə yolu" adlı məcmuədə, Hüseyn Cavidin əmisi oğlu Məhəmməd Rəsizadənin "Şərur dairəsinə səyahət haqqında qeydlər" sərlövhəli məqaləsində də yuxarıdakı faktlar təsdiqlənir.

**Xəbərlər şöbəsi**

*"...İnsan arxayın olur ki, "informasiya əsrində" yaşayır, guya hər gün yeni bir şey öyrənir, əslində isə savadlı adamların sayı getdikcə azalır. Az vaxtda Vikipediyada qısa arayış əldə etmək bizi intellektual etmir. Və heç kim Facebookda 40 min saat vaxt keçirməklə başqa adam olmayacaq. Amma rus klassiklərinin 20 cildliyini və ya fransız ədəbiyyatının 20 cildliyini oxuyan adam dəyişəcək. Tamam başqa adam olacaq... Siz uşaq olanda nəsə bir şey oxumusunuz, amma sizin uşağınız heç nə oxumur. Sizin uşağınız sizdən savadsız olacaq, nəvəniz isə uşağınızdan da savadsız olacaq. Beləcə, bütöv xalqlar öz ərazilərini, hətta dillərini itirirlər... Dil təkcə on minlərlə söz ehtiyatı deyil, milli mifin, poeziyanın, mədəniyyətin məkanıdır. Çünki oxumağı unudan millət, öz mifologiyasını, Yeseninin misralarını unudan millət kütləyə çevrilir... Deyə bilərsiniz ki, XV əsrdə əhalinin heç 98 faizi oxumurdu. Bəli. Amma onda hər 100 nəfərdən 99-u əzbərə 100 mahnı, 100 atalar sözü, 100 nağıl bilirdi. Onlar mifoloji məkanda yaşayırdılar, internetdə yox. Ana laylasını, qocaların söhbətlərini eşidərək bir anda ona bağlanırdılar... Kimdən istəyirsən soruş ki, niyə oxumursan? Deyəcək, vaxtım yoxdur. ...Amma 172 seriyalıq seriala və futbol matçına baxmağa vaxtları var. Kimsə məndən soruşsa ki, niyə dəbdə olan ən son amerikan serialına baxmamışam, yalandan deməyəcəm ki, vaxtım yoxdur. İstəsəydim vaxt tapardım. Deyəcəm ki, vaxtıma heyfim gəlir. Başqalarının da mütaliəyə vaxt ayırmağa heyfi gəlir. Qoy onda öz məşğuliyyətləri barədə yalan danışmasınlar..."*

# Kitab oxumaq hər birimizin həyat tərzinə çevrilməlidir





Çağdaş rus ədəbiyyatının tanınmış nümayəndələrindən olan yazıçı Zaxar Prilepinin, təxminən, iki il bundan əvvəl yerli elektron media vasitələrindən birində gedən müsahibəsindən götürdüyüm bu fikirləri təsadüfən xatırlamadım. Müsahibə ilə o zamandan tanış idim. Bu tanışlığım həm də onunla nəticələnmişdi ki, ortayaşlı tanınmış rus yazıçısının sonradan bir neçə kitabını oxumuşdum. Ancaq bu yazıda Prilepini xatırlamağım onunla bağlıdır ki, həmin müsahibədə yazıçı mütaliə mədəniyyətinin faydaları haqqında xeyli dəyərli fikirlər səsləndirir. Onun bu fikirləri öz xalqının müasir mənzərəsinə aid olsa da, təəssüf ki, bizim üçün də aktualdır. Maraqlı, həm də təəccüb olunası fakt odur ki, indi hər kəs – yaşlı da, gənc də kitab oxumağın faydalı olduğunu, inkişaf etməyin yeganə yolunun oxumaqla, bilik əldə etməklə mümkünlüyünü etiraf edir, ancaq bunu praktik olaraq icra etmir. Bəs onda problem nədədir? Niyə biz mütaliə mədəniyyətimizi inkişaf etdirə bilmirik? Təbii ki, bu suala birmənalı cavab vermək mümkün olmayacaq. Amma məsələ burasındadır ki, kitab oxumaq, hər şeydən əvvəl, bir vərdişdir və bu vərdiş uşaq yaşlarından yaranır. Digər tərəfdən isə bu vərdişə yiyələnməkdə mühit böyük rol oynayır. Çünki insan elə bir şüurlu varlıqdır ki, düşdüyü vəziyyət ona bu və ya digər dərəcədə təsir göstərir, daha doğrusu, onun real vəziyyətə adaptasiya olunmasına şərait yaradır. Nəzərə alaq ki, yaşadığımız müasir dövr əvvəlki dövrlərdən fərqli olaraq müxtəlif informasiya mənbələrinin çoxluğu ilə seçilir. Bu hal isə bəzilərində belə bir yanlış düşüncənin qəbul edilməsinə gətirib çıxarır ki, əlimizdə olan müxtəlif informasiya resursları kitabları əvəz edir. Halbuki bugünkü elmi-texniki tərəqqinin, elektron vasitələrin əl-çatan olmasında illərlə oxunmuş kitabların, aparılan elmi təcrübələrin böyük rolu olub. Və bunu heç zaman yaddan çıxarmayaq ki, bundan sonrakı elmi-texniki inkişafı da yenə oxunan kitablar müəyyənləşdirəcək. İngilis yazıçısı Nil Geymanın kitab oxumaq haqqında çox faydalı bir mühazirəsi var. Həmin mühazirədə yazıçı deyir ki, 2007-ci ildə mən Çində idim, partiya tərəfindən ilk dəfə bəyənilərək təşkil edilmiş elmi fantastika məclisində iştirak edirdim. Hansısa bir anda mən hakimiyyətin rəsmi nümayəndəsindən soruşdum: Niyə indi? Axı elmi fantastika uzun müddət bəyənilmirdi. Nə dəyişdi ki, bəyəndiniz? Hər şey çox sadədir, – o, mənə dedi. Çinlilər əgər onlara sxemlər gətirilirdisə, çox gözəl şeylər yaradırdılar. Amma heç nəyi yaxşılaşdırmır və özləri ixtira etmirdilər. Buna görə də onlar Apple, Microsoft, Google şirkətlərinə nümayəndə heyəti göndərdilər və gələcəyi müəyyənləşdirmiş bu şirkətlərin sahiblərindən nə isə öyrənməyə çalışdılar. Və aşkar etdilər ki, onlar uşaq olarkən elmi fantastika oxuyurdular...

Maraqlıdır, deyilmi? Bəs kitab oxumağın insan sağlamlığına hansı faydaları olduğunu bilirikmi? Alimlərin apardığı tədqiqatlara görə beyinin ən yaxşı dərmanı oxumaq sayılır. Çünki insan beyni digər orqanlara görə ən tənbəl orqandır. Onun sağlam işləməsi üçün yeniliklərə ehtiyacı var, bu ehtiyacı isə oxumaq ödəyir. Kitab oxumağın orqanizmə faydasını araşdıran britaniyalı mütəxəssislər də maraqlı nəticələr əldə ediblər. Onların qənaətinə görə, cəmi 6 dəqiqə kitab oxumaq insanda stresin səviyyəsini üç dəfə azaldır: "Başqa üsullarla müqayisədə kitab oxumaq insanı daha tez sakitləşdirir və yüngülləşdirir". Mütəxəssislərin araşdırmalarına görə, qiraət edərkən əzələlərin gərginliyi aradan qalxır və ürək döyüntüsü normallaşır. Bu sahədə aparılan tədqiqatlar göstərir ki, inkişaf etmiş ölkələrdə daha az televizor seyr edib, daha çox kitab oxuyurlar. Almaniyalı professor Fişer deyir: "İnsan beyni düşündükcə beyin tutumu, düşünmə imkanları və qabiliyyəti inkişaf edir. Beyin işlədikcə inkişaf edən, istifadə edilmədikdə isə ən sürətlə kütləşən insan orqanıdır. Bu kütləşməni aradan qaldırmaq üçün zehni məşğələyə cəlb etmək lazımdır. İllərlə işləməyən beyinin nə hala düşdüyünü özünüz təsəvvür edin".

Hörmətli oxucular, kitab oxumaq bütün dövrlərin ən faydalı məşğuliyyəti olub. Ancaq təəssüflər olsun ki, biz hələ də bunu özümüzün sevimli məşğuliyyətinə çevirə bilməmişik. Və bu fakt təkcə gənc nəslin deyil, ümumilikdə, cəmiyyətin problemidir. İndi artıq "Niyə kitab oxumuruq?", "Gənclərimiz niyə kitabxanalardan lazımınca istifadə etmirlər?" kimi sualların müzakirələr də məsələni həll etmir. Bu, elə bir problemdir ki, bunun həlli inzibati yollarla tənzimlənmir. Ona görə də mütaliə mədəniyyətini formalaşdırmaq üçün hamılıqla nümunə ortaya qoymağı bacarmalıyıq. Əslində, kütləvi şəkildə heç kimin kitab oxumamasından şikayətlənmək də ədalətsiz olar. Hər halda bu günlərdə apardığımız kiçik müşahidə bunu bir daha təsdiq etdi.

Əvvəla, onu deyək ki, Naxçıvanda kitab oxumaq üçün lazımi şərait var. Belə ki, muxtar respublikamızdakı kitabxanalar müasir tələblərə cavab verir, belə mədəniyyət müəssisələrində klassik ədəbiyyatlardan tutmuş müasir dövrün yazıçılarının əsərlərinə qədər istənilən kitabı tapmaq mümkündür. Müşahidələrimiz zamanı şəhərimizdəki kitab satılan mağazalarda kifayət qədər müxtəlif ədəbiyyatların olduğunu gördük, eyni zamanda kitab alıcıları ilə rastlaşdıq. Göründənə idi ki, kitab bazarında əvvəlki dövrlərə nisbətən müəyyən qədər canlanma var. Ancaq bunu heç də kütləvi hal kimi qəbul etmək düzgün olmazdı. Bizim ən çox diqqətimizi cəlb edən isə Atatürk küçəsində fəaliyyət göstərən "Möminə xatın" kitab-kafesi idi.

Məlumatı olmayanlar üçün deyim ki, bu kitab-kafe 2014-cü ilin noyabr ayından fəaliyyətə başlayıb. Naxçıvan Dövlət Universitetinin müəllimi, tarix üzrə fəlsəfə doktoru Sevinc Abbasovanın təşəbbüsü ilə yaradılmış bu obyektin əsas məqsədi gənclərimizdə mütaliə mədəniyyətini formalaşdırmaqdır. Sevinc müəllimə bizimlə söhbətində bildirdi ki, burada kitab oxumaq istəyənlər üçün lazımi şərait yaradılıb. Gənclər üçün nəzərdə tutulsa da, hər kəs bura gəlib rəflərdəki kitablardan götürərək heç bir ödəmə olmadan istifadə edə bilər. Müsahibimiz qeyd etdi ki, hazırda burada həm tələbə və müəllimlər üçün dərslik vəsaitləri, həm də müxtəlif sahələrə aid ədəbiyyatlar mövcuddur. Bundan əlavə, oxucular istədikləri kitabı sifariş etmək hüququna da malikdirlər və çalışırıq ki, onların bu istəklərini vaxtında yerinə yetirək. Bəs oxucularınız daha çox hansı yaş qrupuna daxildirlər? – sualına isə belə bir cavab aldıq: "Bura tələbələr daha çox gəlirlər. Ancaq şəhər sakinlərindən də oxucularımız olur. Buranın çox fərqli aurası var. Məsələn, oxucularımız bura gəlib kitab oxuyarkən onlara ucuz qiymətə müxtəlif içkilər – çay, su və yaxud kofe təklif olunur. Söhbət zamanı kafeyə gələn oxucuların sayının artması da nəzərimizdən qaçmır. Həmsöhbətimiz bunu hiss edib bildirir ki, hazırda təhsil müəssisələrində tətil olduğu üçün daimi oxucularımız bura tez-tez gəlirlər. Bəs mütaliə mədəniyyətinin təbliği üçün nə edirsiniz? – sualına cavab aldıq ki, "Oxumağı sevdirmək" layihəsi bizim ən böyük layihəmizdir. Bu istiqamətdə bir çox tədbirlərimiz olub və gələcəkdə də olacaqdır. Söhbət əsnasında Sevinc müəllimə ilə kitab oxumağa diqqəti cəlb etmək üçün şəhərdaxili avtobus nəqliyyatında "Möminə xatın" kitab-kafesinin daimi oxucuları ilə birlikdə kitab oxumağı qərarlaşdırdıq. Ertəsi gün bunu reallaşdırdıq. Məqsədimiz insanların diqqətini mütaliəyə cəlb etmək, kitab oxumaq mədəniyyətini təbliğ etmək, oxumağın hər zaman və hər yerdə faydalı olduğunu göstərmək idi...

Bir dəfə Albert Eynşteyndən soruşurlar ki, necə edək, uşaqlarımız ağıllı olsunlar. Onun cavabı sadə və müdrik olur: "Əgər siz istəyirsinizsə ki, uşaqlarınız ağıllı olsunlar, onlara nağıl oxuyun. Əgər siz istəyirsinizsə ki, onlar daha da ağıllı olsunlar, onlara daha çox nağıl oxuyun".

*Məncə, əlavə şərhə ehtiyac yoxdur. Gələcək inkişafımız onunla bağlı olacaq ki, kitab oxumağı hər birimiz həyat tərzinə çevirək.*

**Səbuhi HƏSƏNOV**

## Daşınmaz əmlakın icbari sığortası vətəndaşlar üçün faydalıdır

***İnsanın yaşadığı ev və digər daşınmaz əmlakı onun həyatı üçün mühüm tələbatlardan biridir. Məhz normal ev şəraiti hər bir ailənin yaxşı yaşaması üçün əsas şərtdir. Vətəndaşlara məxsus evlərin və digər daşınmaz əmlakın gözlənilməz bədbəxt hadisələrin zərərlərindən qorunması isə müasir sığortanın qarşısında duran əsas vəzifələrdəndir. Çünki daşınmaz əmlakın dəyəri artdıqca gözlənilməz hadisələr zamanı ona dəymiş zərərlərin vətəndaşın öz imkanları hesabına aradan qaldırılması da çətinləşir.***

Vətəndaşlara məxsus daşınmaz əmlaka gözlənilməz hadisələr nəticəsində müxtəlif zərər dəyə bilər. Bir çoxları yalnız yanğın və zəlzələ nəticəsində daşınmaz əmlaka zərər dəydiyini düşünsələr də, elə gözlənilməz hadisələr vardır ki, onların nə zaman baş verə biləcəyini demək çətindir. Belə ki, yanğın və zəlzələdən başqa, insanların sahib olduğu daşınmaz əmlak sıxışmış qaz və buxar partlayışından, elektrik naqillərində yaranan qısaqapanmadan, su, istilik, kanalizasiya kəmərlərinin və yanğınsöndürmə sistemlərinin qəzasından, digər tikililərdən, yaşayış və qeyri-yaşayış sahələrindən, yaşayış evlərindən və binalarından, mənzillərdən daxil olan su nəticəsində subasmadan zərər görə bilər. Bunlardan başqa, baş verə biləcək güclü külək, fırtına, qasırğa, tufan, dolu, sel, daşqın, leysan, yer sürüşməsi və habelə üçüncü şəxslərin hərəkətləri nəticəsində daşınmaz əmlak məhv ola bilər, yaxud hər hansı digər formada zərər görə bilər.

Sığorta hadisələri adlandırılan belə gözlənilməz təsadüfi hallar daşınmaz əmlaka çox müxtəlif dərəcədə zərər vura bilir. Belə ki, yaşayış evlərinin konstruktiv elementlərinə, otaqlara, o cümlədən şüşələr də daxil olmaqla qapı və pəncərə konstruksiyalarına, su, kanalizasiya və qaz təchizatına, habelə istilik sisteminə aid borulara, rabitə xətlərinə, elektrik naqillərinə, bəzək elementlərinə, eləcə də bütün növ xarici və daxili mala və suvaq işlərinə, divar, tavan və döşəməyə dəyən zərərlər bərpa olunduqda xeyli həcmdə maddi vəsait tələb olunur. Baş vermiş hadisələrin təhlili göstərir ki, belə hallarla rastlaşmış, lakin daşınmaz əmlakını vaxtında sığorta etdirməmiş vətəndaşlar bu zaman ciddi maddi çətinliklərlə üzləşirlər. Nəticədə, təkcə bir nəfər deyil, həmin vətəndaşların digər ailə üzvləri də çıxılmaz vəziyyətə düşürlər. Bunun baş verməməsi, bütün ailənin sosial vəziyyətinin ağırlaşmaması üçün daşınmaz əmlakın icbari sığortası dövlət tərəfindən qanunla təsbit olunmuş qaydada aparılır. Burada əsas məqsəd vətəndaşların sosial müdafiəsi, sığortanın məhz icbari qaydada təmin olunmasıdır. Belə ki, Naxçıvan şəhərində yaşayan bir vətəndaşın 40 manat ödəməklə 20 min manat məbləğində öz daşınmaz əmlakını sığortalaması buna misal göstərə bilərik. Göründüyü kimi, cəmi 0,2 faizlik bir sığortahaqqı qarşılığında 20 min manatlıq sığorta ödənişi verilir.

Cəmiyyət inkişaf etdikcə insanların yaşayış səviyyəsinin yüksəlməsi müasir dövrümüzün bir həyat tərzidir. Həyat səviyyəsi göstəricisi kimi əhalinin istehlak qabiliyyətinin artması və yüksək dəyərli daşınmaz əmlak əldə olunması günümüzün reallığıdır. Bu da təsadüfi deyildir. Belə ki, vətəndaşlara məxsus daşınmaz əmlakın dəyəri, bilavasitə, onların lüks həyat səviyyəsini ifadə edir. Buna görə də daşınmaz əmlakın sığorta olunması və bu yolla insanların mənafelərinin zəmanət altına alınması dövlət və əhali arasında etibarlı əməkdaşlığın bir forması kimi ölkəmizdə həyata keçirilən sosial siyasətin mühüm bir hissəsidir.

Hazırda Naxçıvan Muxtar Respublikasında vətəndaşlara məxsus daşınmaz əmlak kimi yaşayış evləri, binalar, mənzillər bir qayda olaraq icbari sığorta olunur. Burada məqsəd sığorta hadisələri baş verdiyi zaman daşınmaz əmlakın məhv olması və yaxud hər hansı formada zərər görməsi ilə əlaqədar vətəndaşlara dəymiş zərərin əvəzinin ödənilməsidir. Bu sığorta növündə qaydalar və şərtlər yalnız qanunla müəyyən edilir. Başqa sözlə, daşınmaz əmlakın sığortalanması üçün sığorta hadisəsi hesab olunan hallar qanunla dəqiq şəkildə müəyyənləşdirilmişdir. Bu sığorta növü zamanı Naxçıvan şəhərində yaşayan vətəndaşlar öz daşınmaz əmlaklarını 40 manatlıq sığortahaqqı ödəməklə 20 min manata, muxtar respublikanın rayonlarında yaşayan vətəndaşlar isə 30 manat sığortahaqqı ödəməklə 15 min manat məbləğində sığortalaya bilərlər. Onu da qeyd etmək lazımdır ki, sığortahaqqının bu məbləği minimum məbləğ kimi müəyyən edilmişdir. Bu məbləğdən artıq qiymətləndirilə bilən daşınmaz əmlak onun sahibi ilə razılaşdırılmış müqaviləyə əsasən daha artıq məbləğə sığortalana bilər.

Göründüyü kimi, vətəndaşlara məxsus daşınmaz əmlakın icbari sığortası onların mənafelərinin təmini baxımından çox faydalıdır. Çünki daşınmaz əmlak sığorta hadisəsi zamanı zərər gördüyü zaman icbari sığorta müqaviləsi bağlamış və sığorta müqaviləsi qüvvədə olan vətəndaşlara tam sığorta təminatı verilir.

**Əli CABBAROV**


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 126